

Ramiz DUYĞUN

# Haqqın tələbi ilə

*Prezidentimiz, Silahlı Qüvvələrin*
*Ali Baş Komandanı İlham Əliyevə həsr edirəm*

*Tarixin təkərini geri döndərən kişi,*
*Yalan "statuskvonu"*
*Cəhənnəmin dibinə,*
*Qəti göndərən kişi!*
*Göstərdin bu dünyaya*
*Hayların kimliyini -*
*Bəşər kəzzablarını,*
*İnsan qəssablarını.*
*yamanlıq nökərini...*
*Sən geriyə döndərdin*
*Tarixin təkərini...*
*Qəlbin istəyən kimi,*
*Tanrının hökmü ilə,*
*Tarixin tələbilə,*
*Haqqın tələbi ilə,*
*Dəyişdin,*
*Çayların yatağını.*
*Yerləşdirdin yenidən,*
*Birləşdirdin yenidən*
*Oxçu çayı,*
*Bərgüşadı, Bəsit çayı,*
*Arazı, Həkərini!...*
*Sən geriyə döndərdin*
*Tarixin təkərini -*
*Çalındı*
*İsrafilin suru!*
*Qaytardın Zəngəzuru!..*

*Bunu heç kim*
*Eləməyib tarixdə,*
*Bunu bilmir tarix də!*

*Rəhmət Sənə süd verənə!*
*Nəsihət, öyüd verənə!*
*Əcdadına mərhəba!*
*Ustadına mərhəba!..*

Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 10.